Respublika.- 2023.- 4 iyul. S. 9.

**Vüsal Quliyev peşəkar hərbçi idi. Lənkəran şəhərində dünyaya gəlmişdi. Lənkəran şəhər xarici dillər təmayüllü internat tipli gimnaziyada oxuduğu illərdə hərbçi olmaq arzusu ilə yaşayırdı. Orta məktəbi bitirdikdən sonra hərbçi peşəsinə yiyələndi. Silahlı Qüvvələrin Hərbi Akademiyasının nümunəvi məzunlarından biri idi.**



# ÖMRÜ BİTSƏ DƏ, XATİRƏLƏRDƏ YAŞAYIR

2007-ci ildə Gəncə şəhərində "N" saylı hərbi hissədə leytenant rütbəsində taqım komandiri vəzifəsində hərbi xidmətə başladı. Ağstafa, Ağcabədi, Beyləqan, Goranboy rayonlarında yerləşən hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmətini uğurla davam etdirdi.

Vətən müharibəsi başlananda Vüsal Quliyev Tərtər rayonundakı "N" saylı hissədə kəşfiyyat rəisinin köməkçisi idi. İgid kapitan müharibənin ilk günündən döyüşlərə qatıldı. Düşmənə qarşı fədakarlıq, yüksək peşəkarlıqla döyüşür, əsl hünər, şücaət göstərirdi. Hər dəfə düşmənin xeyli canlı qüvvəsini, texnikasını məhv edirdi. Suqovuşan qəsəbəsində növbəti tapşırığı yerinə yetirərkən şəhidlik zirvəsinə yüksəldi. Doğulub boya-başa çatdığı doğma Lənkəran şəhərində böyük izdihamla torpağa tapşırıldı. Rüqəyya və Hüseynəli adlı iki övladı yadigar qalıb.

Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirən Milli Ordumuzun kapitanı Vüsal Tahir oğlu Quliyev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları əsasında 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Lənkəranlılar qəhrəman zabitin xatirəsini daim əziz tuturlar. Orta təhsil aldığı Lənkəran şəhər xarici dillər təmayüllü internat tipli gimnaziyada şəhidin ad günü qeyd olunub. Tədbirdə şəhidin valideynləri, ailə üzvləri, qohum-



ları, məktəb yoldaşları, gimnaziyanın müəllim və şagirdləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.

Gimnaziyanın direktoru, respublikanın Əməkdar müəllimi Mənsur Ağayev Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində ordumuzun şanlı qələbəsindən, böyük zəfərin qazanılmasında Vüsal Quliyev kimi igid, peşəkar hərbçilərimizin qəhrəmanlığından ətraflı söhbət açıb. Gimnaziyanın müəllimləri İlhamə Gözəlova və Nuranə Zülfiyeva şəhid kapitanın mənalı ömür və qəhrəmanlıqlarla dolu döyüş yolundan danışıb. Şagirdlərin ifasında şəhidlərə həsr edilmiş şeirlər səslənib, ədəbi-bədii kompozisiya nümayiş olunub.

Tədbirin sonunda şəhidin valideynləri şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**